# Ali Baş Komandanın yaralı əsgərlərlə görüşü qələbəyə inamı daha da artırdı

***Bu gün hər birimizin ürəyi düşmənə qarşı rəşadətlə mübarizə aparan igid əsgər və zabitlərimizin yanındadır. Biz Azərbaycan Ordusunun yüksək peşəkarlığına və Vətənə bağlılığına güvənir, ona arxalanırıq. Otuz ildən çoxdur ki, mənfur düşmən torpaqlarımızın iyirmi faizini işğal altında saxlayır. Bu illər ərzində dövlətimiz münaqişənin dinc yolla həlli üçün əlindən gələni etsə də, işğalçı Ermənistan hər dəfə təxribata əl atdı. Prezident İlham Əliyev beynəlxalq səviyyəli konfrans və tədbirlərdə Ermənistanın işğalçılıq siyasətini dünyaya çatdırır, Azərbaycanın haqlı mövqeyini bəyan edərək, ölkəmizin öz ərazi bütövlüyünü beynəlxalq hüquq çərçivəsində bərpa etmək hüququnu dönə-dönə xatırladır.***



Ermənistanın danışıqlar prosesini pozması, Tovuz təxribatlarından sonra cəbhədə gərginliyi daha da artıraraq mülki obyektləri hədəfə alması Azərbaycanın əks-hücum əməliyyatlarına başlamasına səbəb oldu. Düşmənin Tovuz təxribatları zamanı minlərlə Azərbaycan gənci küçələrə axışaraq ordumuzla həmrəy olduğunu bildirdi, cəbhəyə yollanıb Vətənimizin müdafiəsində iştirak etmək arzularını dilə gətirdi. Bu gün həmin gənclər yüksək vətənpərvərlik nümayiş etdirərək müvafiq qurumlar tərəfindən cəbhəyə yola salınırlar. Bu, bir valideyn, Azərbaycan vətəndaşı kimi məni çox qürurlandırır və sevindirir.

Müharibə varsa, qan-qada, şəhidlik də var. Torpaq uğrunda şəhid olan, vuruşan varsa, Vətəndir. Prezident, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərlə görüşü igid vətən müdafiəçilərində və əsgər valideynlərində bir nikbinlik, ruh yüksəkliyi yaratdı. Prezident bu önəmli görüşdə çıxışı zamanı bir sıra vacib məqamlara toxundu. O, bildirdi ki, düşmənin işğalçı əsgərlərindən fərqli olaraq, bizim əsgərlər xilaskar əsgərlərdir. Prezident dedi: “Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri işğalçılardan azad edib, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik.”

Prezidentin bu çağırışı döyüşçülərin və gənclərin qələbə əzmini daha da gücləndirir. Bəli, Azərbaycanın işi haqq işidir. Bu yolda bütün dünya azərbaycanlıları dövlətimizin və xalqımızın yanındadır.

Bu görüşdə cənab Prezidentin yaralı hərbçilərimizin, eyni zamanda, döyüşlərdə şəhid olmuş oğullarımızın valideynləri qarşısında baş əyməsi və təşəkkürünü bildirməsi böyük vətənsevərlik və insanlıq nümunəsidir.

Prezident İlham Əliyevin hərbçilərlə görüşdə səsləndirdiyi bu sözlər isə hamımızın ürəyincədir: “Bütün Azərbaycan xalqı sizinlə qürur duyur. Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

***İlqar ORUCOV,***
***Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri***

Xalq qəzeti 2020.- 4 oktyabr.- S.4.